# "Qarşımıza qoyduğumuz bütün vəzifələr həyatda öz əksini tapıb"

***2019**-cu il başa çatır. Yola saldığımız il daxili və xarici siyasət sahələrində Azərbaycan üçün uğurları ilə yadda qalacaq. Prezident İlham Əliyevin dekabrın 23-də yerli KİV-ə müsahibəsində vurğuladığı kimi, 2019-cu il ölkəmiz üçün uğurlu olmuşdur və ilin əvvəlində qarşıya qoyulmuş bütün vəzifələr həyatda öz əksini tapmışdır. Dövlət başçısının rəhbərliyi altında həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi siyasət nəticəsində dinamik xarakter almış inkişafın 2020-ci ildə də sürətlə davam edəcəyinə və atılan hər bir addımın sıravi azərbaycanlının gündəlik həyatında əks olunacağına heç bir şübhə yoxdur.*



Prezident İlham Əliyev, həmişə olduğu kimi, bu dəfə də müsahibəsində daxili və xarici siyasət məsələlərinə dair bir sıra mühüm açıqlamalar vermişdir. Dövlət başçısı konseptual xarakterli müsahibəsində daxili siyasətdə bir sıra uğurlara imza atıldığını diqqətə çatdırmışdır. Xüsusilə də son zamanlar həyata keçirilən kadr islahatlarına toxunan Prezident İlham Əliyev bildirmişdir ki, kadr və struktur islahatları, əslində, bir-birini tamamlayan islahatlardır: "Bu, ümumi islahatlar siyasətinin təzahürüdür. İslahatlar müxtəlif dövrlərdə, müxtəlif templə və səmərə ilə həyata keçirilib. Keçənilki prezident seçkilərindən sonra mənim andiçmə mərasimimdəki çıxışımda islahatların yeni mərhələsi elan edildi və biz bu islahatları ardıcıl şəkildə reallaşdırmağa başladıq, o cümlədən kadr islahatları ilə bağlı olan məsələlər öz həllini tapdı". Ölkə başçısı yeni hökumətdə müasir dünyagörüşünə malik olan gənc, eyni zamanda, təcrübəli kadrların təmsil olunduqlarını və onların rəhbərlik etdikləri sahələrdə islahatların artıq yaxşı nəticələrinin müşahidə edildiyini vurğulamışdır.

Struktur islahatları barədə də danışan Prezident İlham Əliyev demişdir ki, yerli icra orqanlarında kadr dəyişikliyi aparılır və aparılacaq. "Bu proses davam etdiriləcək. Bu, labüddür, çünki dayanıqlı inkişafı təmin etmək üçün həm struktur çevik olmalıdır və ağır olmamalıdır, eyni zamanda, kadrlar müasir çağırışlara cavab verməlidirlər", – deyən ölkə başçısı XXI əsrdə köhnə baqajla nailiyyət əldə etməyin mümkün olmadığını nəzərə çatdırmışdır. Prezident İlham Əliyev həyata keçirilən islahatların əsas məqsədlərini də açıqlamışdır. Onun sözlərinə görə, islahatların əsas məqsədi Azərbaycanda mövcud olan ab-havanı daha da sağlamlaşdırmaqdan və xoşagəlməz hallara yol verməməkdən ibarətdir. "Yeni kadrlar yeni yanaşma gətirirlər, yeni düşüncə tərzi gətirirlər" – deyən Prezident İlham Əliyev onların fəaliyyətini yüksək qiymətləndirdiyini də vurğulamışdır.

Ölkə başçısı müsahibəsində kadr və struktur islahatlarının zamanında aparıldığını açıqlamışdır. Aydındır ki, kadr və struktur islahatları yeniləşən Azərbaycanın daha da müasirləşməsinə güclü kömək edir, dövlət fəaliyyətinin günün tələbləri səviyyəsində formalaşdırmağa və həyata keçirilməsinə münbit şərait yaradır. Prezident İlham Əliyev müsahibəsində məsələnin bu aspektinə toxunaraq bildirmişdir ki, ölkədə işə yanaşma tərzi dəyişir. Azərbaycan yeniləşir, Azərbaycanın yeni siması ortalığa çıxır, müasir dövrə uyğun, cəmiyyətimizin gözləntilərinə uyğun və bizim inkişaf strategiyamıza uyğun iqtidarın yeni siması ortalığa çıxır.

Prezident İlham Əliyev müsahibəsində 2019-cu ildə də xarici siyasətin Azərbaycanın milli maraqlarına uyğun yürüdüldüyünü bildirmişdir. Ölkə başçısı xarici siyasət sahəsində böyük uğurlar əldə edildiyini vurğulamış və Azərbaycanın ənənəvi tərəfdaşları ilə əlaqələrində mühüm razılaşmalar əldə etdiyini diqqətə çatdırmışdır. Qonşu ölkələrlə münasibətlərin Azərbaycan üçün xüsusi əhəmiyyət daşıdığını önə çəkən Prezident İlham Əliyev son illər bu münasibətlərin inkişaf səviyyəsində məmnun qaldığını açıqlamışdır. Məlumdur ki, ötən dövr ərzində Azərbaycan regional miqyasda bir sıra strateji layihələrin reallaşdırıcısı və təşəbbüskarı kimi çıxış etmişdir. Artıq bir sıra strateji layihələr uğurla fəaliyyətə başlamışdır. Bu, əlbəttə ki, Azərbaycanın yaxın ölkələrlə konstruktiv əlaqələr qurmasının məntiqi nəticəsidir.

Ölkə başçısı müsahibəsində bu əlaqələrin qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və bir-birinin işinə qarışmama prinsipləri əsasında qurulduğunu və bu istiqamətdə atılmış addımların və tərəfdaşlarımızın addımlarının bu əlaqələri gücləndirdiyini, eyni zamanda, regional əməkdaşlığa da müsbət təsir göstərdiyini diqqətə çatdırmışdır. "Artıq Azərbaycanın təşəbbüsü ilə qonşu ölkələrlə bizim üçtərəfli əməkdaşlıq formatımız var. Bu format həm məna, həm də ki, əldə edilmiş nailiyyətlər baxımından çox müsbət formatdır", – deyən Prezident İlham Əliyev digər ölkələrlə də ikitərəfli əlaqələrimizin inkişaf etdiyini bildirmişdir. 2019-cu ildə həm beynəlxalq tədbirlərdə iştirak etmək üçün, həm də ikitərəfli formatda Azərbaycana 40-dan çox dövlət və hökumət başçısının səfər etməsi rəsmi Bakının fəal xarici siyasət yürütdüyünü bir daha təsdiqləyir. Bu göstəriciyə görə 2019-cu il, ölkə başçısının da qeyd etdiyi kimi, rekord il kimi tarixə düşəcək.

Heç kimə sirr deyil ki, Azərbaycan müxtəlif güc mərkəzlərilə qarşılıqlı faydalı münasibətlər qurmaqda maraqlıdır. Xüsusilə də rəsmi Bakı Avropa İttifaqı ilə münasibətlərində əməkdaşlıq səviyyəsinin daim inkişaf etməsində maraqlı olduğunu və aparılan çoxspektrli dialoqun fasiləsiz xarakter almasına yönələn addımları dəstəklədiyini praktiki addımları ilə təsdiqləmişdir. Azərbaycan etibarlı enerji təchizatçısı kimi artıq dünyada nüfuz qazanmışdır və hazırda fəaliyyət göstərən, hələ inşası davam edən strateji enerji layihələri də belə deməyə əsas verir.

Bununla belə, Azərbaycan rəhbərliyi bütün güc mərkəzlərilə münasibətlərində milli maraqlara cavab verəcək əməkdaşlığa üstünlük verdiyini və iqtisadi-siyasi suverenliyini məhdudlaşdıracaq addımlar atmayacağını bəyan etmişdir.

Bu mənada Prezident İlham Əliyevin müsahibəsində Azərbaycan–Aİ əməkdaşlığına dair açıqladığı fikirlər istər ölkədə, istərsə də beynəlxalq miqyasda böyük maraqla qarşılanmışdır. Cari il Avropa İttifaqı ilə əlaqələrimizin uğurla inkişaf etdiyini diqqətə çatdıran ölkə başçısı hər iki tərəf arasında tərəfdaşlıq prioritetləri adlı sənədin paraflandığını və həmin sənəddə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına Avropa İttifaqı tərəfindən dəstək ifadə edildiyini xatırlatmışdır. Bununla yanaşı, Prezident İlham Əliyev xüsusilə vurğulamışdır ki, Aİ ilə imzalanacaq yeni saziş hər iki tərəfin maraqlarını təmin etməlidir.

Ölkə başçısı imzalanacaq yeni sazişdə strateji əhəmiyyət daşıyan məsələlərin milli maraqlarımıza cavab verməli olduğunu açıqlamışdır. Ən əsası, saziş bütün bərabərhüquqlu əməkdaşlığa zidd olan məqamlardan azad olmalı və bərabərhüquqlu tərəflər arasında imzalanmalıdır. Prezident İlham Əliyev sazişlə bağlı müzakirələrin hansı mərhələdə olduğunu da açıqlamışdır. Onun sözlərinə görə, sazişin bəndlərinin mütləq əksəriyyəti razılaşdırılmış və məsələlərin, təqribən, 90 faizi razılaşma əsasında öz həllini tapmışdır, qalan məsələlər xoşniyyətli ab-hava çərçivəsində öz həllini tapmalıdır.

Prezident İlham Əliyev müsahibəsində Dağlıq Qarabağ problemi barədə də danışmışdır. 2019-cu ilin danışıqlar prosesi üçün itirilmiş il olduğunu vurğulayan ölkə başçısı bunun da yeganə səbəbinin Ermənistan rəhbərliyinin bu danışıqlarda qeyri-konstruktiv mövqe sərgiləməsindən və beynəlxalq vasitəçilərin işğalçı ölkəyə lazımi təsir və təzyiq göstərməmələrindən ibarət olduğunu diqqətə çatdırmışdır. Məhz buna görə 2019-cu ildə danışıqlar prosesində hər hansı bir ciddi irəliləyişin əldə olunmadığını nəzərə çatdıran Prezident İlham Əliyev Ermənistan rəhbərliyinin ziddiyyətli və bir-birini təkzib edən bəyanatlarının təəccüb və təəssüf doğurduğunu vurğulamışdır.

Ermənistanın yeni rəhbərliyinin ilkin mərhələdə Dağlıq Qarabağla bağlı ortalığa cəfəng fikirlər atdığını xatırladan ölkə başçısı əlavə etmişdir ki, rəsmi Yerevanın münaqişə ilə bağlı bəyanatları danışıqları uzatmaq, yaxud da ki, öz məsuliyyətini boynundan atmaq üçün işlədilir. Prezident İlham Əliyev münaqişə ilə bağlı danışıqların Ermənistan və Azərbaycan arasında aparıldığını bir daha açıqlamış və danışıqlar formatının dəyişməz qalmasını diplomatik nailiyyət kimi qiymətləndirmişdir. "Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bizim danışıqlar prosesində mövqeyimizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Tarixi həqiqət bizim tərəfimizdədir",– deyən Prezident İlham Əliyev ermənilərin Cənubi Qafqazda gəlmə millət olduqlarını, onların çar Rusiyası tərəfindən XIX əsrdə Rusiya–İran müharibəsindən sonra bizim bölgəmizə köçürüldüklərini xatırlatmışdır.

Ölkə başçısı müsahibəsində Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməli olduğunu deməklə yanaşı, xalqların müqəddəratını təyinetmə prinsipinə də toxunmuşdur. Prezident İlham Əliyev bir daha vurğulamışdır ki, erməni xalqı öz müqəddəratını artıq müəyyən etmişdir: "Onların müstəqil Ermənistan dövləti var, hansı ki, qədim Azərbaycan torpaqlarında yerləşir və biz Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik".

Dövlət başçısı yerli KİV-ə müsahibəsində ölkənin siyasi həyatında baş verəcək əlamətdar hadisəyə – fevralın 9-da keçiriləcək parlament seçkilərinə də münasibətini açıqlamışdır. Qanunverici orqanın ölkədə sürətlə aparılan genişmiqyaslı kadr və struktur islahatlarından kənarda qalmasının mümkün olmadığını diqqətə çatdıran Prezident İlham Əliyev parlament seçkilərinin cəmiyyət tərəfindən, o cümlədən siyasi partiyalar tərəfindən müsbət qiymətləndirildiyini bildirmişdir.

Hazırda bütün şəraitin yaradıldığı Azərbaycanda parlament seçkilərinin şəffaf keçiriləcəyinə əmin olduğunu açıqlayan ölkə başçısı əlavə etmişdir ki, nəticələr Azərbaycan xalqının iradəsini əks etdirəcək. "Azərbaycan xalqı layiqli nümayəndələri seçəcək. O nümayəndələr ki, öz qanunvericilik fəaliyyətlərində ümumi işimizə töhfə verəcək",–deyən Prezident İlham Əliyev layiqli nümayəndələri öz dairələrində fəal iş aparmağa çağırmışdır. Ölkə başçısı müsahibəsində deputatların seçicilərlə sıx təmasda olmalarının vacibliyindən də danışmışdır. "Xalqın gözü tərəzidir", – atalar sözünü xatırladan Prezident İlham Əliyev bildirmişdir ki, layiqli nümayəndələrin seçicilərlə sıx ünsiyyətdə olduqları təqdirdə məsələlər və problemlər daha məqbul formada öz həllini tapa bilər.

Bir sözlə, Prezident İlham Əliyevin ilin yekunlarına dair yerli KİV-ə geniş müsahibəsində bir sıra mühüm məsələlərə münasibətini açıqlamış, qarşıdakı vəzifələr və görüləcək işlər haqqında məlumat vermişdir. Dövlət başçısının müsahibədə səsləndirdiyi fikirlər və tezislər bir daha təsdiqləyir ki, son zamanlar həyata keçirilən genişmiqyaslı islahatların hədəfləri dəyişməyəcək, əhalinin rifah halının daha da yaxşılaşmasına şərait yaradan mütəmadi addımlar atılacaq və Azərbaycanın hərtərəfli inkişafına təkan verən çoxaspektli siyasət bundan sonra da davam etdiriləcək.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***